**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.2.108**

**ƏLİ QƏHRƏMANOV***

# NAXÇIVAN TEATRI ÇAĞDAŞ DÖNƏMDƏ (1991-2024)

*Məqalədə qədim sənət ocağının müstəqillik illərindəki (1991-2014) yaradıcı fəaliyyəti təhlil olunur. Bu illərdə Naxçıvan teatrı monumental tamaşalar yaratmağa çox meyl göstərib. Həm mövzu müxtəlifliyi, həmjanr əlvanlığı, həm də xarakter zənginliyi baxımından klassik və müasir Azərbaycan dramaturgiyası ilə yanaşı, dünya klassiklərinin yaradıcılıqlarını teatr diqqət mərkəzində saxlayıb. R. Səməndərin "Şəhidlər", Ə.Nesinin "Ölən adam", İ.Səfərlinin "Xeyir və Şər", H.Cavidin "İblis", N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü", N.Xəzrinin "Atillanın atlıları", H.Elsevərin "Koroğlu nəsli", N.Hikmətin "Kəllə", N.Nərimanovun "Nadir şah", H.İbsenin "Kuklalar evi", Ç.Aytmatovun "Manqurt", Ə.Əmirlinin "Şah Qacar", İ.Əfəndiyevin "Hökmdar və qızı", M.Cəlalın "Dirilən adam", Elçinin "Teleskop", H. "Araz sahilində doğan günəş", A.Babayevin "Koroğlunun Çənlıbelə qayıdışı", K.Çapekinin "Ana", V.Hüqonun "Edama məhkumun son günü" və s. əsərlərin müvəffəqiyyətlə tamaşaya qoyulmasından bəhs olunub. Həmçinin teatrın qasrtrolları da işıqlandırılıb. Məqalə "Şərq qapısı" qəzetində gedən materiallar əsasında hazırlanmışdır.*

**Açar sözlər:** *Teatr, dramaturq, rejissor, aktyor, qastrol.*

## Giriş

Vətənimiz müstəqilliyə qovuşduqdan sonra ölkənin hər bir sahəsində olduğu kimi, mədəniyyət və incəsənət də inkişaf etdi. Bu zaman Naxçıvan teatrı da romantik monumental tamaşalar yaratmağa daha çox meyl göstərir. Hazırlayıb göstərdiyi tamaşalarla sənətkarlıq və müasirlik mövqeyini möhkəmləndirir və muxtar respublika zəhmətkeşlərinin mənəvi yüksəlişində müstəsna rol oynadı. Tear son illərdə vətənpərvərlik, soya, kökə bağlılıq istiqamətində müxtəlif mövzulu tarixi əsərləri tamaşaya hazırlamaqla ənənə yaradıb. Göstərdiyi tamaşalarla xalqımızın qəhrəmanlıq salnaməsinin qaranlıq qalmış səhifələrinə cəsarətlə və çağdaş dünyaduyumu prizmasından baxım bacarığı ilə yaddaqalan obrazların ictimai-sosial mahiyyətinə və dramaturqların fəlsəfi fikir dərinliyinə diqqətlə yanaşıb. Tamaşaların üslub-janr prinsiplərini həssaslıqla gözləməklə yanaşı, mövzuya, insani münasibətlərin mahiyyətinə güclü sosial-ictimai çalarlarla çağdaçlıq baxımımdan dəyərini artırıb. Göstərdiyi tamaşalarla teatr xalqımızın tarixinin, görkəmli dühalarımızın həyatının vacib məsələlərini səhnəyə gətirib.

**Naxçıvan teatrı müstəqilliyin ilk illərində**. Məlum həqiqətdir ki, müstəqillik illərində muxtar respublikanın maddi-mənəvi həyatında əsaslı dəyişikliklər oldu, böyük nailiyyətlər qazanıldı. Ümummilli lider Heydər Əliyev 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən teatrın kollektivi qarşısında mühüm və təxirəsalınmaz vəzifələr qoydu. Teatrın yaradıcı heyəti də ciddi sənət axtarışına başladı. Repertuarına daxil etdiyi əsərlərə müasirlik mövqeyindən yanaşdı. Əsgər Əsgərov, Kamran Quliyev və Vaqif Əhmədov kimi gənc rejissorların fəaliyyəti nəticəsində 1991-1996-cı illərdə "Şəhidlər" (R.Səməndər), "Ürək çalanlar" (M.Ordubadi və F.Əmirov), "Xeyir və Şər" (İ.Səfərli), "Anamın kitabı" (C.Məmmədquluzadə), "Sizi deyib gəlmişəm" (Anar), "Ölən adam" (Ə.Nesin), "Məşədi İbad", "Arşın mal alan" (Ü.Hacıbəyov), "Arvadımın əri" (G.Xuqayev), "Gülbala" (K.Həsənov), "Canlı eksponatlar" (H.Elsəvər), "İtilənən xəncərlər" (H.Arzulu) əsərləri teatrın repertuarına salındı və muxtar respublika zəhmətkeşlərinə göstərildi.

"Şəhidlər" pyesi dövrün diqtəsindən irəli gələn məsələlərə həsr olunmuşdu. Tamaşa "20 Yanvar" şəhidləri və eləcə də torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən günahsız şəhidlərimizin faciəli taleyinə həsr olunmuşdu. 18 yanvar 1991-ci ildə göstərilən "Şəhidlər" tamaşası böyük əks-səda doğurdu. Həmin ilin 2 iyulunda "Xeyir və Şər" pyesində ictimai-sosial problemlər diqqəti cəlb etdi. Hər iki tamaşa Əsgər Əsgərov quruluşunda ərsəyə gəlmişdi.

Səhnəyə qoyulan əsərlər içərisində "Anamın kitabı" (3 yanvar 1992) tamaşası gələcəyinə ümidlə

baxdığımız gənc rejissor Vaqif Əhmədov müəllifin qarşıya qoyduğu bütöv Azərbaycan ideyasını ön plana çəkməklə tamaşanın bədii təsir qüvvəsini daha da qüvvətləndirirdi. Tamaşanın finalında müstəqil Azərbaycan dövlətinin atributu olan üçrəngli bayrağımızın əzəmətlə dalğalanması birliyimizin yenilməzliyini bir daha nümayiş etdirdi. Dilimizin təmizliyi, milli-mənəvi dəyərlər, vətənpərvərlik ideyaları ilə bağlı məsələləri orijinal şəkildə təqdim edən rejissor özü də vətənpərvərlik alovu ilə yanaraq vətənimizi mənfur düşmənlərdən qorumaq üçün cəbhəyə yollandı. Ağdərə döyüşlərində qəhrəmanlıqla şəhid oldu. O, şəxsi həyatı ilə birliyimizin rəmzinə çevrildi. "Sizi deyib gəlmişəm" ilk dəfə 1992-ci ilin 28 aprelində K.Quliyevin, "Ölən adam" isə Ə.Əsgərovun quruluşunda 29 iyulunda oynanıldı.

Teatr 1993-cü il yanvar ayının 18-dən 23-dək Bakı şəhərində qastrolda oldu. "20 yanvar şəhidlərinə həsr olunmuş "Şəhidlər" pyesi ilə yanaşı, Ü.Hacıbəyovun "Ordan-burdan", C.Məmmədquluzadənin "Anamın kitabı", Ə.Nesinin "Ölən adam" əsərləri də Aktyor evində, S.Vurğun adına Bakı Dövlət Rus Dram Teatrında paytaxt tamaşaçılarına göstərildi. Teatr həmin ilin iyun-iyul aylarında Türkiyənin Qars şəhərinə səfərdə oldu, "O olmasın, bu olsun", "Ər və arvad" musiqili komediyalarını türkiyəli qardaşlarımıza göstərdi" [8].

**Naxçıvan teatrı 1997-2002-cü illərdə.** Naxçıvan teatrı yarandığı gündən milli klassiklərimizlə yanaşı dünya dramaturgiyası incilərinə də müraciət etmişdir. Bu baxımdan osetin dramaturqu G.Xuqayevin müxtəlif illərdə bir sıra əsərləri, o cümlədən "Arvadımın əri" komediyası da 70-ci illərdə mərhum rejissor Vəli Babayevin quruluşunda uğurlu səhnə təcəssümünü tapıb. "Arvadımın əri" tamaşası 29 iyulda (1993) Ə.Əsgərovun quruluşunda ictimaiyyətə təqdim olundu. Əsərinin tamaşasında qaldırılan bir çox qlobal problemlər–yüngül qazanc əldə etmək istəyənlər, müftəxorlar kəskin satira atəşinə tutulur. Tamaşanın yaradıcı heyətinnin bütün iştirakçıları əsasən gənclərdən ibarət idi.

Teatrda 1997-ci ildə Ü.Hacıbəyovun "Ər və arvad" 9 yanvarda, Z.Hacıbəyovun "Əlli yaşında cavan" 15 iyunda Ə.Əsgərovun, R.İçərişəhərlinin "Arzum çin oldu" 17 noyabrda K.Quliyevin quruluşlarında və N.Nərimanovun "Nadir şah" tarixi faciəsi avqustun 14-də müvəffəqiyyətlə oynanılır. Teatrın repertuarında "Nadir şah" tarixi faciəsi həmişə uğur qazanan tamaşalardan olub. Bu tarixi faciədə gənc rejissor Elçin Mirzəbəyli Nadir şahın azadlıq ideyalarını, arzu və düşüncələrini, milli dəyərlər uğrunda apardığı mübarizəsini ön plana çəkməklə tamaşanın müvəffəqiyyətinə nail oldu. Musiqi tərtibatçısı Etiqad Seyidovun S.Hacıbəyov və F.Əmirovun musiqilərindən istifadə etməsi, xüsusilə tamaşanın proloq və epiloqunda "Karvan" simfonik muğamına müraciəti, eləcə də rəssam Ə.Axundovun əsərin məzmun və qayəsinə uyğun verdiyi bədii quruluş tamaşanın dəyərini bir daha artırırdı. Teatr 1997-ci ilin avqust ayında respublikanın bir sıra rayonlarında "Nadir şah" və "Arzum çin oldu" əsərlərini göstərir. Sentyabr ayında isə teatr Türkiyənin Ankara, Trabzon, İğdir və Van şəhərlərinə səfərlərində teatrsevərlərə Üzeyir Hacıbəyovun "Məşədi İbad" musiqili komediyasını təqdim edirlər.

Teatr 1998-ci ildə "Koroğlu nəsli" (5 fevral, Həsən Elsevər, rejissor Rövşən Hüseynov), "Qarğanın iflası" (16 may, Mərkəz Quliyev, rejissor Ələkbər Qasımov), "Şəhərli kürəkən" (18 may, Ramiz Muxtar, rejissor Kamran Quliyev), "Hələlik" (7 oktyabr, E.Sabitoğlu və R.Əhmədzadə, Azərbaycan Musiqili Komediya teatrının rejissoru Y.Əkbərov) quruluşlarında sənətsevərlərə təqdim olundu. Rövşən Hüseynovun quruluşunda tamaşaya qoyulan H.Elsevərin "Koroğlu nəsli" (5 fevral) əsərində dövr üçün son dərəcə aktual olan çox incə mətləblərdən bəhs edir. "K.Quliyevin oynadığı Feyzulla kişi rolu tamaşada ən yaddaqalan müsbət obraz kimi diqqəti cəlb edir... Feyzullanın nəvəsi Səyahət – S.Canbaxşıyev gecəyarısı evə gəlir. Bu, müharibə veteranı Feyzullanı narahat edir, nəvəsinin cəbhədən qaçdığını düşünür. Feyzulla kişi Səyahətin və onun dostu Bağırın – V.Rəcəbovun fərarilik etdiyini öz dillərindən eşidən kimi onlarla ətraflı söhbət edir, onlarla bərabər cəbhəyə gedir. Polkovnik Nəcəfov – R.Xudiyev Feyzullanın gəlişinə qəlbən sevinir. Müdrik ağsaqqalın ağıllı məsləhətinə əməl edərək, əsgərləri düz yoldan azdıran, xəstə əsgərləri ordudan qaçmağa sövq edən Kazımov – Ş.Abutalıbov familiyası altında gizlənən, erməni casusunun ifşa olunmasına nail olur... Səyahətin sevgilisi Lətafət – Z.Zeynalova da ön cəbhədə sevgilisi ilə birlikdə döyüşə girir. Feyzulla kişi, Səyahət, Bağır və Lətafət böyük cəsarət nümayiş etdirirlər. Müasir həyatımızdan bəhs edən "Koroğlu nəsli" 90-cı illərində tamaşaya qoyulan ən uğurlu tamaşa olmaqla, çox böyük tərbiyəvi əhəmiyyət

kəsb edirdi" [7]. Həmin il Azərbaycan Respublikasının Xalq artisti Səyavuş Aslan Bakı aktyorlarının ənənələrinə sadiq qalaraq mart ayında Naxçıvana gəlir və yerli aktyorlarla birlikdə Z.Hacıbəyovun "Əlli yaşında cavan" musiqili komediyasının tamaşada oynayır. O, Naxçıvanda olarkən "Şərq qapısı" qəzetinə verdiyi müsahibədən: "Vallah, elə mən də çoxdan Naxçıvana gəlmək arzusunda idim. Bu torpaq şeir, sənət ocağıdır. Bu torpaq mirzə cəlillər, cavidlər yurdudur. Məni Naxçıvana dəvət etdilər, mən də çox məmnun hisslərlə ulu torpağa gəldim. Sizin teatrın repertuarında olan Z.Hacıbəyovun "50 yaşında cavan" musiqili komediyasında yerli aktyorlarla birlikdə Orduxan rolunda çıxış etdim. Öncədən deyim ki, Naxçıvan teatrındakı son işlər məni xeyli sevindirdi. Zarafata gəlməsin, bu teatr əsaslı teatrdır. Fürsətdən istifadə edərək naxçıvanlı həmkarlarımın və eləcə də muxtar respublika sakinlərini Novruz bayramını təbrik edir, onlara möhkəm can sağlığı və səadət arzulayıram" [3].

1999-cu ildə R.İçərişəhərlinin "Kələkbaz qızlar" (22 fevral), H.Arzulunun "Ərsizlər və arsızlar" (28 sentyabr) K.Quliyevin, P.Pançevinin "Dörd ekiz qardaş" (14 noyabr) R.Hüseynovun quruluşlarında səhnə həllini tapır. Azərbaycan Milli Akademik Dram Teatrının rejissoru M.Fərzəlibəyovun quruluşunda "Atabəylər" (N.Həsənzadə) mənzum dramı Naxçıvan Muxtar Respublikası yaradılmasının 75 illiyi münasibətilə 10 mayda (elmi məsləhətçi akademik Z.Bünyadov və İ.Həbibbəyli, rejissor K.Quliyev) tamaşaçılara təqdim olundu. Bu monumental tarixi pyesdə xalqımızın qəhrəmanlıq salnaməsi, yadellilərə qarşı mübarizə yüksək dərəcədə tərənnüm olundu. Güclü dramatizm, dolğun və zəngin xarakterlər pyesin dramaturji dəyərini daha da qüvvətləndirdi. M.Fərzəlibəyovun verdiyi müsahibəsindən: "Atabəylər" tamaşasını Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr etmişik. Əsər başdan-başa Naxçıvan torpağı ilə bağlıdır… Tamaşanın quruluşçu rəssamı Ə.Axundov olduqca istedadlı, səhnəqrafiyanı gözəl bilən bir yaradıcıdır. Əbülfəzdə olan yaradıcı fantaziya mənim çox xoşuma gəldi. O, olduqca zövqlü və geniş yaradıcı təxəyyülə malik teatr rəssamıdır… Əgər mən Naxçıvan teatrında yenidən tamaşa qoysam, tərəddüd etmədən Ə.Axundovla birlikdə işlərdim... Tamaşanın musiqi tərtibatçısı Ə.Yunusov və C.Əliyevdir. Məhz onların tərtib etdiyi musiqilər də tamaşanın bədii-estetik dəyərini çox artırırdı. Xoşbəxtlikdən bu tamaşada maraqlı aktyor ansamblı iştirak edirdi" [16, 1999, 22 may].

Teatrda 2000-ci ildə repertuarda olan H.Elsevərin "Qorxulu oyun" 23 fevralda K.Quliyevin, İ.Məlikzadə və S.Ələsgərovun "Hərənin öz ulduzu" 20 apreldə Y.Əsgərovun quruluşlarında oynanılır.

Müstəqillik illərində Cavid dramaturgiyasına qayıdış milli oyanışın qələbəsi idi. Tanınmış ziyalı Turan Cavid fərəhlə bəyan edirdi ki, Hüseyn Cavidə əsl bəraəti Heydər Əliyev vermişdir. Heydər Əliyevin sənətə, Vətənə, ulu keçmişimizə qəlbən bağlılığı sayəsində ulu Cavid yenidən xalqa, ədəbiyyata, teatr aləminə qayıtdı. Cavid əsərləri təkrar-təkrar nəşr olundu, pyesləri tamaşaya qoyuldu. "Topal Teymur" faciəsinin (29 dekabr 2000) K.Quliyevin quruluşunda tamaşaya qoyulması milli oyanışın dirçəlişinə xüsusi zəmin yaratdı. "Quruluşçu rejissor tamaşanı məhz Cavidin ideyaları əsasında hazırlamışdı... Naxçıvan teatrı XX əsrdə böyük bir tarix yaşadı... Teatr iyirminci əsri "Topal Teymur" tarixi faciəsi ilə başa vurdu" [14]. Həmin uğurlu tamaşadan sonra (30 dekabr 2000) teatrın artistlərindən bir qrupu Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görüldü. 2000-ci ilin mart ayında teatr İran İslam Respublikasının Maku, Təbriz, Urmiya və Xoy şəhərlərində olduğu müddətdə "Nadir şah" faciəsinə iranlı teatrsevərlər baxırlar [9, 2000, 15 aprel].

Elçinin "Mənim ərim dəlidir" pyesi 2001-ci ilin 23 martında K.Quliyevin quruluşunda tamaşaya qoyulur. Teatrın həyatında bu pyes xüsusi səhifə açır. "Mənim ərim dəlidir" pyesi mövzu etibarilə müasir mərhələdə Azərbaycan cəmiyyətində gedən ictimai-mənəvi proseslərin bədii əks sədasından ibarətdir. Xalq yazıçısı bir ailənin və onları əhatə edən dost-tanışların timsalında keçid dövründə meydana çıxan eybəcərlikləri düşünülmüş həyati hadisələr, seçilmiş-tapılmış detallar vasitəsilə mənalandırır. Yaranmış fürsətdən istifadə edən bir qrup insanların cildlərini dəyişərək əslində "xalqa xidmət" pərdəsi altında şəxsi mənafelərini güdmələri, ən müxtəlif yollarla mövqe qazanmaq üçün canfəşanlıq etmələri tamaşada öz əksini tapır. Əsərdəki əsas ideya müstəqilliyin inkişaf etdrilməsi və möhkəmləndirilməsi yollarında cəmiyyəti bu cür mənfi tiplərdən xilas etməkdir. Tamaşa Bakıda və Türkiyədə uğurla nümayiş etdirilir. Tamaşaya cəlb olunmuş aktyor heyəti hadisələri və müəllif ideyasını dolğun surətdə mənalandırmaqla bərabər, həm də teatrın hazırkı mərhələdə geniş potensiala malik olduğunu sübut etdi. Rejissor K.Quliyev həm xalq yazıçısı Elçinin qayəsini, həm də çağdaş səhnəni duyması, kollektivin imkanlarına bələd olması tamaşanın uğurlu alınmasına səbəb olmuşdur.

Tariximizin ən dərin qatlarından xəbər verən N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" mənzum pyesi isə 16 apreldə (2002) M.Fərzəlibəyov və K.Quliyevin müştərək quruluşunda göstərilir [11]. Tamaşanın ana xəttində yadelli işğalçılara qarşı aparılan mübarizə, tarixi həqiqətlər, milli dəyərlərimizin geniş şəkildə təbliğ olunmasında "Pompeyin Qafqaza yürüşü" böyük təsir gücünə malik əsərdir.

E.Əfəndiyevin acı gülüş ilə hadisələrin ictimai mahiyyətini, cəmiyyətdə baş verən mənəvi eybəcərlikləri tutarlı, bədii vasitələrlə qələmə aldığı "Dəlixanadan dəli qaçıb" ("Mənim sevimli dəlim") tragikomediyası 2002-ci ilin 22 oktyabrında K.Quliyevin quruluşunda tamaşaya qoyulur. Hadisələrin konkret məkanı bir qəzet redaksiyasındır. Tamaşada redaksiya daxilindəki çaxnaşmalar, insanların qeyri-sağlam düşüncələri, sovetlər əyyamından qalmış iş prinsipi aktyor ifaları ilə tamaşaçılara təqdim olunur. Əsərdə qarşıya qoyulan məsələlər istər-istəməz tamaşaçını düşündürür. "Əsərdəki personajların konkret adları yoxdur. Sadəcə olaraq tutduqları vəzifələri ilə adlanırlar. Professor, şəfqət bacısı, baş redaktor, məsul katib, ədəbi işçi, katibə və s. Tamaşada R.Xudiyevin məharətlə yaratdığı baş redaktor obrazı özünün emosional ifa tərzi ilə fərqlənir. H.Ağayevin oynadığı professor obrazı təbiiliyi ilə seçilir. X.Hüseynovun yaratdığı məsul katib rolunda inandırıcı idi. Ş.Abutalıbovun oynadığı şöbə müdiri, Y.Allahverdiyevin ustalıqla yaratdığı siyasi icmalçı, V.Rəcəbovun öz dəsti-xətti ilə yaratdığı Ponteleymon Polikarpoviç, N.Hüseynquluyevanın incə çalarla ifa etdiyi şəfqət bacısı, G.Qurbanova və V.Həsənovun oynadıqları katibə və ədəbi işçi rolları da diqqəti cəlb edirdi. Ümumiyyətlə, aktyorlar yaratdıqları obrazlar üçün xüsusi cizgilər tapa bilmişdilər" [1]. Rejissor tamaşada keçən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olan səriştəsiz, bacarıqsız məmurları kəskin satira atəşinə tutur və cəmiyyətdə yaranan ədalətsizlikləri, qeyri-sağlam düşüncələri, insanlara və ətraf mühitə olan biganəliyi aydınlığı ilə açıb göstərir.

2003-cü ilində G.Xuqayevin "Mənim qayınanam" (18 sentyabr) Y.Ramazanovanın, İ.Coşqunun "Ana laylası" (30 oktyabr) R.Hüseynovun, H.Arzulunun "Mərhəmət məhəbbət deyil" (22 noyabr) K.Quliyevin quruluşlarında səhnəyə qoyulur. H.Cavidin anadan olmasının 121-ci ildönümü ərəfəsində iyulun 10-da K.Quliyevin quruluşunda ictimaiyyətə təqdim edilən "İblis"in təxminən 80 illik fasilədən sonra Naxçıvanda səhnəyə gəlməsi, günümüzlə səsləşməsi baxımından aktual olduğu üçün teatrın son illərdəki həyatında mühüm hadisəyə çevrildi. Rejissor yozumu tamaşanın məna və məntiq tutumunda, onun müasirlik və sənətkarlıq mövqeyində, aktyor və rejissor mədəniyyətinin qüvvətli ifadəsində, faciədəki fikrin obrazlı təcəssümündə özünü göstərdi. "Rejissor "İblis" faciəsində ictimai qəzəb və etiraz hisslərini müharibə ideyaları ilə yaşayanlara qarşı yönəldir. İnsanları əzab və iztirablara salan, min dona girib riyakarlıq edən, böhtanlar atmaqdan həzz alan İblisin təbiəti ilə, müasir dünyanı fəlakətə sürükləyən oyunbazların törətdikləri rəzalətlər arasında aydın bir səsləşmə yaradır. Xalqın sevincini əlindən alan, onları əzab və iztirablara salan qüvvətin əli ilə insanları diz çökdürmək ideyası ilə yaşayan, İblis təbiətli riyakarlar "Dodaqlarında gülüş, əllərində ürək yaralayan bıçaq" gəzdirərək rəzalətlər törətdiyi tamaşaçılara çatdırılır" [15]. Cavid irsinə məhəbbətlə yanaşan, onun sənətini yüksək dəyərləndirən Heydər Əliyev 1993-cü ilin sentyabr ayının 21-də Azərbaycan Respublikası Milli Elmlər Akademiyasında ziyalılarla görüşündəki çıxışında demişdir ki, İndi Hüseyn Cavidin əsərləri xalqa havasu kimi lazımdır. Təkcə bədii baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır… Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri deyildir.

**Naxçıvan teatrı 2004-2024-cü illərdə.** 2004-cü ilin repertuarına salınan Abdulla Şaiqin "Yazıya pozu yoxdur" 15 iyunda Y.Ramazanovanın, Ə.Əylislinin "Vəzifə" 17 iyulda R.Hüseynovun, M.F.Axundovun "Sərgüzəşti-Vəziri-Xani-Lənkəran" 12 oktyabrda və H.Orucovun "Bu dünyanın adamları" iki hissəli komediyası 16 noyabrda K.Quliyevin quruluşlarında tamaşaya qoyulur. Xatırladaq ki, 1997-ci ilin sentyabr ayının 20-də Azərbaycan Milli Akademik Dram Teatrında İ.Əfəndiyevin "Hökmdar və qızı" əsəri misilsiz müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu. Ümummilli lider əsərə tamaşa etmiş, onlara öz tövsiyələrini verərək demişdir: "İ.Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, xidmətlər göstəribdir, çox dəyərli əsərlər yazıbdır. Onun yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının

tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəslə çatdırıbdır, həm də müasir həyatımızın müsbət və mənfi cəhətlərini gözəl təsvir edibdir". Həqiqətən də ümummilli liderin tövsiyələri bütün mədəniyyət, ədəbiyyat, teatr aləmi üçün bir proqram idi. "Naxçıvan teatrı da bu proqram xarakterli tövsiyələri öz fəaliyyətində rəhbər tutaraq İ.Əfəndiyev dramaturgiyasına müraciət etdi və "Hökmdar və qızı" tarixi əsərini martın 30-da R.Hüseynovun quruluşunda uğurla tamaşaya qoydu" [16, 2004, 14 may].

Nəriman Həsənzadənin "Atabəylər" əsəri Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinə (2004,14 may) layiqli töhfə oldu. "Atabəylər" tarixi pyesində xalqımızın qəhrəmanlıq səhifəsi, yadellilərə qarşı aparılan mübarizə yüksək sənətkarlıqla tərənnüm olunur. Rejissorun yozumunda zəngin və dolğun xarakterlər, güclü dramatizm tamaşanın bədii vüsətini, ictimai-siyasi mahiyyətini qüvvətləndirirdi. Tariximizə işıq salan, soy kökümüzlə qürur hissi keçirməyə əsas verən bu əsər mühüm tərbiyəvi əhəmiyyəti vardır. Tamaşaya Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva və yubiley iştirakçıları tamaşa etdilər.

Naxçıvan teatrının 2005-ci ildə repertuarına salınan N.Xəzrinin "Atillanın atlıları" (20 yanvar), H.Cavidin "Afət" (9 fevral) Y.Ramazanovanın, C.Məmmədquluzadənin "Dəli yığıncağı" komediyası (2 aprel), E.Həbibin "Sahilsiz çaylar" (2 dekabr) K.Quliyevin quruluşlarında tamaşaçılara təqdim olunur. "Dəli yığıncağı" tamaşasındakı hadisələrin mərkəzində iki qardaş Fazili Dərbəndi-Molla Abbas münasibətləri dayanır. Fazili Dərbəndinin tamahkarlığı, yalnız şəxsi mənfəətdən yoğrulmuş eybəcər mənəvi siması ilə işıqlı düşüncələrlə yaşayan, namus hissini hər şeydən üstün tutan Molla Abbasın fərqli taleləri və baxışları böyük millətpərvər yazıçıya həm eybəcərlik, ürək dağlayan faciələr, həm də müsbət meyllər, ağıl, idrak, ümid, işartıları haqqında düşünmək və düşündürmək imkanı vermişdir. Xalq artisti Həsən Ağasoy Fazili Dərbəndinin daxili puçluğunu, simasızlığını bütün tünd rəngləri ilə birlikdə səhnədə canlandırır. Tamaşa keçmişdən gərəkli ibrət dərsi almağa, haqq-ədaləti müdafiə etməyə, ən başlıcası isə xalqı öz məmləkətinin və dövlətinin real sahibi olmağa, dövlət müstəqilliyini qoruyub möhkəmləndirməyə çağırır. Bu tamaşa Naxçıvan teatrının imkanları, bütöv mənzərəsini tam təsəvvür etməyə şərait yaradır. "Teatrın yaradıcı kollektivi 2005-ci ilin iyun ayında Bakıda və Sumqayıtda qastrolda olarkən "İblis", "Hökmdar və qızı" tarixi faciələrini və "Bu dünyanın adamları" pyesini zəhmətkeşlərə təqdim etmişlər" [12, 2005, 8 iyun].

Teatrın 2006-cı il repertuarına Əfqan Əsgərovun "Qız atası", Altay Məmmədovun "Həmyerlilər", Mir Cəlal Paşayevin "Dirilən adam", Ü.Hacıbəovun "Arşın mal alan", S.Vurğunun "Fərhad və Şirin" əsərləri daxil edilir. Klassik irsə müraciət həmişə teatr kollektivlərinə hörmət gətirir. Belə hallar milli dəyərlərə, soykökə qayıdış kimi qəbul olunur, repertuar zənginliyi yaradır, teatrın uğuru və irəliyə atılan sənət qələbəsi kimi dəyərləndirilir. Bu mənada dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun xüsusi yeri vardır. Onun "Arşın mal alan" musiqili komediyası dünyanın 50-dən artıq ölkəsində böyük uğurla tamaşaya qoyulub, dəfələrlə ekranlaşdırılıb. Naxçıvan teatrının da yenidən "Arşın mal alan" musiqili komediyasına müraciət etməsi təsadüfi deyildir.

2007-ci ilin repertuarına K.Ağayevanın "Məhsəti", N.Hikmət və V.Tulyakovanın "Kor padşah", H.Arzulunun "Əlincə qalası", H.Cavidin "Səyavuş" (24 oktyabr) daxi edilir. Ümumilli lider Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə mayın 4-də "Əlincə qalası" tarixi dramı K.Quliyevin yeni quruluşunda ictimaiyyətə göstərilir. "Əlincə qalası" tarixi dramında hadisələr XIV əsrin 80-90-cı illərində Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsinin əsas istinadgahına çevrilmiş Əlincə qalasında cərəyan edir. Tamaşanın əsas qayəsini qəhrəman Naxçıvan övladlarının vətənpərvərliyi, yenilməzliyi təşkil edir. Qüdrətli sərkərdə Əmir Teymur 14 il əzmlə müdafiə olunan Əlincə qalanın keşiyini çəkən naxçıvanlıların qarşısında gücsüz qalır, haqqı, ədaləti məğlub edə bilmir. Tamaşada bu tarixi reallıqlar aktyorların məharətli ifası ilə bədii əksini tapmır. Aktyorlar XIV əsrdə Naxçıvan övladlarının, qız-gəlinlərinin düşmənə qarşı mətinliyinin, mübarizliyinin, xalqın birliyinin, azadlıq və müstəqillik uğrunda mübarizəsinin poetik və dramatik lövhələrini dolğun şəkildə təcəssüm etdirmişdi. Təcəssüm etdirilən real həyat həqiqətləri müasir dövr üçün də aktual olmaqla yanaşı, həm də gənclərimizə yüksək vətənpərvərlik hissi aşılayırdı.

Cavid özünün monumental romantikası, acı fəryadları və şirin arzuları ilə həmişə diqqətdə olan əbədiyaşar bir dramaturqdur. Ümumilli lider, dahi şəxsiyyət Heydər Əliyevin gözəl ifadəsilə: "Hüseyn

Cavidin bədii irsi xalqımızın milli sərvətidir. Bu irsi qorumaq hər bir azərbaycanlının müqəddəs amalına çevrilməlidir". Qüdrətli söz ustadının dünyaya gəlişinin 125 illiyi münasibətilə Naxçıvan teatrı bu əlamətdar yubileyi yeni yaradıcılıq uğurları ilə qarşıladı. Qədim sənət ocağı K.Quliyevin quruluşunda hazırlanan "Səyavuş" mənzum faciəsini (2007, 24 oktyabr) uğurla tamaşaya qoymaqla, bir daha Cavid ədəbi irsinə dərin ehtiram, layiqli töhfə, ülvi sədaqətin rəmzi kimi cavidsevərlərə təqdim etdi.

Teatr 2007-2008-ci il mövsümündə H.Eyvazlının "Araz sahilində doğan günəş" və A.Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" əsərlərinə müraciət etdi. 2008-ci ilin aprel ayının 10-da K.Quliyevin quruluşunda ictimaiyyətə təqdim olunan "Araz sahilində doğan günəş"tamaşasında teatrın yaradıcı kollektivi Azərbaycanda XX yüzilliyin əvvəllərində olan siyasi vəziyyəti uğurla canlandırdı. Tarixi hadisələrdən götürülmüş mövzu aktual olmaqla bu günümüzlə həmahəng səslənirdi. "Naxçıvanın taleyi ilə bağlı ciddi narahatlıq keçirən tamaşanın əsas qəhrəmanları – M.K.Atatürk, B.Şahtaxtinski, İ.Əbilov, N.Nərimanov kimi tarixi şəxsiyyətlərin bu bölgənin statusunun müəyyənləşdirilməsi sahəsindəki fəaliyyətləri tamaşada uğurlu səhnə həllini tapır, 1921-ci ildə Türkiyənin Azərbaycana dostluq, qardaşlıq köməyi, Naxçıvan məsələsində heç bir güzəştə getməməsi də tamaşaçılara bir daha uğurla təqdim edilir. Tamaşanın finalıda ümumilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasındakı çıxışı tamaşaçılara təqdim edilir" [6]. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş "Koroğlunun Çənlibelə qayıdışı" 10 mayda səhnəyə qoyuldu. Tamaşada 1990-cı illərdə Azərbaycanın düşdüyü ağır vəziyyətdən, dahi şəxsiyyətin ölkəni həmin fəlakətdən xilas etməsindən bəhs olunur. Ümummilli liderin Azərbaycana qayıdışı və ölkəni düşdüyü bəladan xilas etməsi tamaşanın əsas leytmotivini təşkil edir. Tamaşanın finalında aktyorların günəşə doğru irəliləməsi ilə Azərbaycanın parlaq gələcəyinə işarə edilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2008-ci ilin yanvar ayının 31-də Azərbaycan teatr sənətinin inkişafında özünəməxsus yeri olan, xalqımızın mədəni və ictimai həyatında mühüm rol oynayan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyinin qeyd olunması haqqında Sərəncam imzaladı [16, 2008, 1 fevral]. Həmin Sərəncamın Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədi ilə 6 fevral 2008-ci il tarixli Sərəncamla yubileyin keçirilməsi ilə əlaqədar "Tədbirlər planı" təsdiq edilir [16, 2008, 7 fevral]. Sentyabrın 27-də teatrda təntənəli yubiley tədbiri keçirilir S.Vurğunun "Fərhad və Şirin" mənzum dramı yubiley iştirakçılarına təqdim edilir.

Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrı 2008-ci il iyunun 14-də Naxçıvanda Ulu öndərin 1990-1994-cü illəri əhatə edən siyasi fəaliyyəti, dövlət çevrilişini dəf etməsi, bütün mübarizələrdən qələbə əzmi ilə çıxmasına həsr olunmuş Aqşin Babayevin "Xilaskar" epik-dramatik əsərinin tamaşası Firudin Məhərrəmovun quruluşunda göstərilir [4]. 2009-cu il 18 noyabrda Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Tearı Naxçıvanda Q.Fiqeyredonun "Ezop" əsərini İslam Həsənovun quruluşunda teatrsevərlərə təqdim edir [2].

2009-cu ildə Anarın "Qaravəlli" (27 fevral), Ə.Əylislinin "Yazığam, sevmə məni!" (17 noyabr), Ş.Sadığın "Qana qan qarışdı" (24 dekabr), 2010-cu ildə M.Nəsirlinin "Qönçəbəyim nəğməsi" (7 aprel), 2011-ci ildə isə M.F.Axundovun "Hekayəti-Xırs Quldurbasan" (25 may) əsərləri tamaşaya qoyulur. 2012-ci ilin 3 fevralında Naxçıvan Dövlət Dram Teatrının binası yenidən qurmadan sonra istifadəyə verilir və həmin gün N.Həsənzadənin "Atabəylər" əsərinin tamaşası göstərilir. Həmin il Teatr həmçinin Ş.Mehdiyevin "Mirzə Fətəli" (10 mart), N.Hikmətin "Kəllə" (25 iyun), H.Cavidin "Şeyx Sənan" (24 oktyabr), Ü.Hacıbəyovun "Koroğlu" (26 may) əsərlərinə müraciət edir. Naxçıvan teatrının fəaliyyəti təkcə muxtar respublikamızla məhdudlaşmır, xarici ölkələrdə keçirilən festivallarda da layiqincə təmsil edilir. Teatr Türkiyə Respublikasının Tarsus şəhərində 2012-ci ilin martın 27-dən aprelin 2-dək keçirilən Türk Dünyası Teatr Günləri Festivalında Q.Lessinqin "Müdrik natan" əsərini türk sənətsevərlərə təqdim edir. Eyni zamanda teatr H.Cavidin anadan olmasının 130 illiyi ilə bağlı Türkiyə Respublikasının Ankara və İstanbul şəhərlərində "İblis" əsərini (24-26 dekabr) teatrsevərlərə göstərir [5]. 2013-cü ildə M.Cəfərovun "Mirzə Cəlil taleyi", A.Çexovun "Russayağı evlənmə", İ.Səfərlinin "Göz həkimi", Ç.Aytmatovun "Manqurt" əsərləri göstərilir. "İnsanlar və talelər" kinossenarisi əsasında ilk dəfə Naxçıvan teatrının səhnəsində K.Quliyevin quruluşunda hazırlanan Mirzə Cəlil dövrünü əks etdirən "Mirzə Cəlil taleyi" tamaşası 23 fevralda sənətsevərlərə təqdim

olundu. Böyük ədibin həyatı, mühiti və mübarizəsindən bəhs edən "İnsanlar və talelər" tamaşasında ədibin müasirlərinin, əməl dostlarının obrazını səhnəyə gətirir, dövrün keşməkeşli hadisələrini işıqlandırır. Həmin ilin 27 martında T.Seyidovun quruluşunda A.Çexovun "Russayağı evlənmə" tamaşası teatrsevərlərə təqdim olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında" 18 yanvar 2013-cü il tarixli Sərəncamı və təsdiq edilmiş "Tədbirlər Planı"na uyğun olaraq Naxçıvan teatrında İslam Səfərlinin "Göz həkimi" pyesi R.Hüseynovun quruluşunda aprelin 2-də, Dünya şöhrətli qırğız yazıçısının "Gün var, əsrə bərabər" romanının motivləri əsasında hazırlanmış "Manqurt" tamaşası 3 dekabrda T.Seyidovun quruluşunda göstərilir. 2014-ci ildə Ə.Əmirlinin "Ağa Məhəmməd şah Qacar", H.Eyvazlının "Araz sahilində doğan günəş", H.İbsenin "Kuklalar evi", M.F.Axundovun "Müsyo Jordan və dərviş Məstəlişah" komediyası əsasında "Müsyo Jordanın Qarabağ sərgüzəşti" tamaşaları ictimaiyyətə təqdim olunur. Norveç dramaturqu H.İbsenin "Kuklalar evi" psixoloji dramı ilk dəfə olaraq teatrda iyunun 27-də T.Seyidovun quruluşunda (məsləhətçi sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov) göstərilir. Əsər də insanın daxili aləmi, sosial ziddiyyətləri, ümumbəşəri problemləri real hadisələrin inkişafı fonunda ortaya qoyulur, cəmiyyətdə qadının mövqeyi, qadın azadlığı, ailə xoşbəxtliyi, yalan və həqiqət kimi məsələlər ön plana çəkilir. Tamaşaçılar vəkil Helme və onun arvadı Noranın simasında bir ailənin həyat dramı ilə tanış olurlar. 2015-ci ildə "Yəhya bəy Dilqəm" (T.Həmid), "Qurtuluş dastanı" (İ.Piriyev), "Nadanlıq və ya qəfil telefon zəngi" (N.Nərimanovun "Nadanlıq" əsəri əsasında), "Rəngsaz" (T.Cücənoğlu) teatrın repertuarına salınır. "Yəhya bəy Dilqəm" ikihissəli lirikpsixoloji dram yanvar ayının 9-da K.Quliyevin quruluşunda göstərilir Aşıq Dilqəm kimi tanınan Yəhya bəyin həyat və yaradıcılığından bəhs edən bu tamaşada hadisələr XIX əsrdə Şəmkir mahalında baş verir. Tamaşada çar Rusiyası ağalığına qarşı mübarizə, milli dəyərlərin yaşadılması ön plana çəkilir. Son səhnədə, Dilqəmin və onun ardınca atası Böyükağa bəyin ölüm məqamında aşıq havası "Dilqəmi"nin səslənməsi el sənətkarının vəfatından doğan kədəri və Vətənin bu halından yaranan qəm-qüssəni ifadə edir, tamaşaçıya tariximizin unudulmaz səhifələrini xatırladır. "Qurtuluş dastanı" ikihissəli epik tarixi dram iyunun 15-də K.Quliyevin quruluşunda ictimaiyyətə təqdim olunur. Heydər Əliyevin mənalı ömür yoluna və çoxşaxəli fəaliyyətinə həsr olunan tamaşada ümumilli liderin siyasi fəaliyyətinin Moskva, Naxçıvan və Bakı dövrlərinin müxtəlif məqamları, həmçinin ayrı-ayrı hadisələrə olan münasibəti də göstərilir. Əsərin finalında aktyorlar müəllifin "Müstəqil vətənin memarı" rekviyem-poemasını söyləməsi milli birliyin rəmzi kimi təqdim edilir. Muxtar respublikada görkəmli dövlət xadimi Nəriman Nərimanovun anadan olmasının 145 illiyi münasibətilə oktyabrın 17-də "Nadanlıq və ya qəfil telefon zəngi" əsəri T.Seyidovun quruluşunda zəhmətkeşlərə göstərilir. "Tamaşada N.Nərimanovun obrazı yaradılır və onun Azərbaycanı müstəqil görmək arzuları əks olunmaqla, dünyəvi təhsilin, müasir məktəbin əhəmiyyəti ön plana çəkilir. "Azərbaycan ədəbiyyatında nadanlığı ilk dəfə tənqid obyektinə çevirən bu əsərin insanları yeniliyə, gələcəyə səsləmək ideyası rejissor səyi və aktyorların məharəti ilə mükəmməl səhnə həllini tapır" [13].

2016-ci ildə "Varlı qadın" (Ə.Əmirli), "Əlincə qalası" (H.Arzulu), "Nadir şah" (N.Nərimanov) və "Arılar arasında" (E.Əfəndiyev) teatrın repertuarına salınır. "Varlı qadın" komediyası 5 fevralda T.Seyidovun quruluşunda göstərilir. Tamaşada həyatımızda baş verən komik situasiyalar əks etdirilir. Hadisələr ölkəmizin iqtisadi çətinliklərlə üzləşdiyi keçən əsrin 90-cı illərində bir ailənin timsalında cərəyan edir. Gündəlik dolanışıq ucbatından elmi işini yarımçıq qoymağa məcbur olan Sarı Qarayevin güzəranı və onun axsaq arvadı Həvva Zərlinskayanın Almaniyada peyda olan yaxın qohumundan vərəsə kimi milyard dollar miras qalması tamaşanın fabulasında maraqlı hadisələrin baş verəcəyindən xəbər verir. Sonrakı hissələrdə bu pullara sahib olmaq üçün qoyulan şərtlər gülüş situasiyaların yaranmasına gətirib çıxarır. "Arılar arasında" əsəri K.Quliyevin quruluşunda 26 noyabrda uğurlu səhnə həllini tapır. Tamaşada kənd və şəhər, eləcə də nəsillər arasındakı münasibətdən bəhs olunur. Müəllif bütün problemlərin müqabilində arı ailəsini nümunə kimi götürür. Göstərilir ki, istər cəmiyyətdə, istərsə də ailədə hər bir fərd ona həvalə edilmiş işin öhdəsindən gəlməyi, nizam- intizamlı olmağı nümayiş etdirməlidir. Səmimi və zəhmətkeş insanlar qocalanda belə həyata olan sevgisi, gələcəyə

inamı əsərin əsas ideyasını təşkil edir. Tamaşada təbiətə və insanlara sevgi, gənclərə yüksək amallar uğrunda yaşamaq tövsiyə olunur [10].

2017-ci ilin repertuadına "Onun iki qabırğası" (Ə.Əmirli) və "Göy quş" (M.Metterlinq) əsərləri daxil edilir. K.Quliyevin quruluşunda (18 aprel) tamaşaya qoyulan "Onun iki qabırğası" əsərində ailə dramı əks olunur. Rejissor yığcam və maraqlı tamaşa yaratmaqla, müəllifin əsərdə qoyduğu ideyanı ustalıqla təcəssüm etdirir. Rəssam Ə.Axundovun bədii quruluşunda sadə, dəbdəbədən uzaq bağ evinin dekorasiyası tamaşada iştirak edən personajların məişət tərzi ilə həmahəng səslənir. Uşaq nağılı poetikasında yazılmış fəlsəfi "Göy quş" əsəri müdrik və ibrətamiz duyğular aşılamaqla, T.Seyidovun quruluşunda nikbin ideyaları təlqin edir. Tamaşadakı uşaq obrazları bəşəriyyətin xoşbəxt gələcəyini simvolizə edərək əsərin ideyasının açılmasında mühüm rol oynayır

2018-2019-cu illərin repertuarında olan "İblis", "Xəyyam" (H.Cavid), "Qayınana əməliyyatı" (Ə.Orucoğlu), "Qılınc və qələm" (M.S.Ordubadi), "Əli və Nino" (Ə.Əmirli), "Ölülər və dəlilər" (C.Məmmədquluzadənin əsərləri əsasında), "Ehsan xan Kəngərli" (X.Əliyev), "Teleskop" (E.Əfəndiyev) əsərləri ictimaiyyətə təqdim edilir. Muxtar respublikanın yaranmasının 95 illik yubileyinə həsr olunan "Ehsan xan Kəngərli" tarixi dramı 2019-cu ilin sentyabr ayının 20-də K.Quliyevin quruluşunda (elmi məsləhətçi akademik İsmayıl Hacıyev) şəhər ictimaiyyətinə təqdim edildi. Dramdakı ictimai-siyasi hadisələr, XIX əsrin əvvəllərində Naxçıvan xanlığında baş verən Rusiya-İran müharibəsi və Naxçıvanın ruslar tərəfindən işğal olunması, xanlığın düşdüyü çətin vəziyyət, Ehsan xanın siyasi düşüncələri və xüsusən ermənilərin yerləşdirilməsinin qarşısını almaq üçün rus diplomatı Aleksandr Qriboyedovla aparılan danışıqlar, eləcə də Naxçıvanın gələcək taleyi ilə bağlı məsələlər tamaşanın əsas süjet xəttini təşkil edir [16, 2019, 21 dekabr]. Xalq yazıçısı Elçin Əfəndiyevin "Teleskop" əsəri gənc rejissor Həcərxanım Məmmədovanın quruluşunda (rəssam Ülviyyə Həmzəyeva, musiqi tərtibatçısı Natəvan Qədimova) dekabr ayının 29-da nümayiş olundu. H.Məmmədovanın "Teleskop" tamaşasına verdiyi quruluş Naxçıvan teatrına yeni talantlı bir qadın rejissorun gəlişindən xəbər verirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümü münasibətilə Türkiyə Cümhuriyyətinin Qars şəhərində "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" və "Ər" pyesləri əsasında səhnələşdirilən "Ölülər və dəlilər" tamaşası 2019-cu ildə göstərilir.

2019-2021-ci illər bütün dünya kimi muxtar respublika da pandemiya şəraitində olduğundan teatrın "Teleskop", "Aydın", "Ehsan xan Kəngərli", "Burla Xatun", "Ölülər və dəlilər", "Ağıldan bəla", "Sirlər xəzinəsi", "Mamoy kişinin yuxuları" tamaşalarının online şəklində Naxçıvan Televiziyasının efirindən və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarından teatrsevərlər izləyirlər. Teatrda 2021-ci ildə Karl Çapekin "Ana" (rejissor Həcərxanim Məmmədova), 2022-ci ildə Nikolay Qoqol "Müfəttiş", İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" (rejissor Tofiq Seyidov) və Hüseyn Cavidin "Topal Teymur" (rejissor Kamran Quliyev) əsərlərinin tamaşaları yüksək səviyyəli səhnə həllini tapır.

**Nəticə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli qərarı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına milli mədəniyyətin təbliği sahəsində müstəsna xidmətlərinə, uzun illər səmərəli fəaliyyətinə, ölkə daxilində və xaricdə əldə etdiyi nailiyyətlərə görə "milli" statusu verildi.

Naxçıvan Dövlət Milli Dram Teatrında Viktor Hüqonun "Edama məhkumun son günü" (Mir Qabil Əkbərovun quruluşunda) psixoloji dramını 2023-cü ildə müvəffəqiyyətlə hazırlayaraq tamaşaya qoyulur. Həmin ilin 20 noyabrında "Edama məhkumun son günü" psixoloji dramı Bakıda, noyabrın 30-da isə Sumqayıtda nümayiş etdirilir. Milli statuslu teatrın əməkdaşları 2023-cü ildə Avrasiya Teatrlar Birliyinin keçirdiyi V Maltepe Beynəlxalq Teatr Festivalında iştirak edir. Həmin il Naxçıvan Dövlət Milli Dram Teatrı "Dönüşüm" mövzulu 11-ci Beynəlxalq İzmir Teatr Festivalında iştirak edir. Türkiyənin Mədəniyyət və İncəsənət Fondu (TAKSAV) tərəfindən təşkil edilən festival çərçivəsində yaradıcı heyət teatrın baş rejissoru Mirqabil Əkbərovun (quruluşçu rəssamı Səyyad Bayramov, xoreoqrafı isə Lamiyə Əliyeva) quruluş verdiyi "Edama məhkumun son günü" tamaşası İzmir Mədəniyyət parkında qardaş ölkənin sənətsevərlərinin qarşısına çıxış edir. Tamaşada edama məhkum edilmiş bir ata ölümünü gözləyərkən keçirdiyi hisslər, sarsıntılar əks olunur. Festivalda

Azərbaycanla yanaşı, İran, Serbiya kimi ölkələr və Türkiyənin müxtəlif şəhərləri də təmsil olunurdu.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə töhfə olaraq H.Eyvazlının "Araz sahilində doğan günəş" dramı 2024-cü il mayın 1-də tamaşaya qoyulur. Tamaşada "Moskva" və "Qars" müqavilələrinin tarixi mahiyyəti, naxçıvanlıların muxtariyyətin qazanılması üçün apardıqları mübarizə, eyni zamanda Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qardaş Türkiyənin göstərdiyi mənəvi dəstək tarixi faktların işığında təqdim olunur. Tamaşa Ümummilli lider Heydər Əliyevin Naxçıvanın muxtariyyəti ilə bağlı səsləndirdiyi tarixi fikirləri ilə sona çatır.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında səhnəyə qoyulan klassik və çağdaş dramaturgiyanın dəyərli nümunələri, dünya klassiklərinin əsərləri əsasında hazırlanmış tamaşalar muxtar respublika zəhmətkeşlərinin mənəvi və estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynayır.

## ƏDƏBİYYAT

1.Həbibbəyli İ. "Dəlixanadan dəli qaçıb" tragi-komediyası uğurla tamaşaya qoyuldu. "Şərq qapısı" qəzeti, 2002, 29 oktyabr.
2.Hüseynov S. Lənkəran Dövlət Dram Teatrı muxtar respublikamızın qonağıdır. Şərq qapısı" qəzeti, 2009, 19 noyabr.
3.Xalq artisti Səyavuş Aslan Naxçıvanda. "Şərq qapısı" qəzeti, 1998,21 mart.
4."Xilaskar" Naxçıvan səhnəsində. "Şərq qapısı" qəzeti, 2008, 17 iyun.
5."İblis" Türkiyə Cümhuriyyətində nümayiş olundu. "Şərq qapısı" qəzeti, 2013, 8 fevral.
6."Qars" müqaviləsinin tarixi işığından bəhs edən "Araz sahilində doğan günəş" tamaşaya qoyuldu. "Şərq qapısı" qəzeti, 2008, 12 aprel.
7.Məmmədov V. Vüqarlı tamaşa. "Şərq qapısı" qəzeti, 1998, 7 fevral.
8.Ramiz Bağırovun müsahibəsi. "Şərq qapısı" qəzeti, 1993, 3 fevral.
9.Naxçıvan teatrının uğurlu qastrolu. "Şərq qapısı" qəzeti, 2000, 15 aprel.
10.Naxçıvanda "Arılar arasında" tamaşasına baxış olmuşdur. "Şərq qapısı" qəzeti, 2016, 27 noyabr.
11."Pompeyin Qafqaza yürüşü" Naxçıvan səhnəsində. "Şərq qapısı" qəzeti, 2002, 18 aprel.
12. Rzayev Ə. Teatrın uğurlu qastrolu. "Şərq qapısı" qəzeti, 2005, 8 iyun.
13.Rzayev Ə. Bir əsr sonra "Nadanlıq" yeni quruluşda. "Şərq qapısı" qəzeti, 2015, 18 oktyabr.
14.Vəzirov C. Naxçıvan teatrı "Topal Teymur"la XX əsrə yekun vurdu. "Şərq qapısı" qəzeti, 2001, 6 yanvar.
15.Vəzirov C. "İblis" uğurla tamaşaya qoyuldu. "Şərq qapısı" qəzeti, 2003, 12 iyun.
16."Şərq qapısı" qəzeti.

***AMEA Naxçıvan Bölməsi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: aliqehreman@yahoo.com***

**Ali Gahramanov**

## NAKCHIVAN THEATER IN THE CONTEMPORARY PERIOD (1991-2024)

The article analyzes the creative activity of the ancient art center during the years of independence (1991-2014). In these years, the Nakhchivan theater has shown a tendency to create monumental performances. In addition to the classical and modern Azerbaijani dramaturgy in terms of the variety of topics, the versatility of the same genre, and the richness of characters, the theater focused on the creations of world classics. "Martyrs" by R. Samandar, "The Dead Man" by A. Nesi, "Good and Evil" by I. Safarli, "The Devil" by H. Javid, "March of Pompeii to the Caucasus" by N. Hasanzade, "Attila's Horsemen" by N. Khazri, H. Elsever's "Koroglu Descendants", N. Hikmat's "Skull", N. Narimanov's "Nadir Shah", H. Ibsen's "The Doll's House", C. Aytmatov's "Mangurt", A.

Amirli's "Shah Qajar", I. Efendiyev's "Hokmdar and girl", M. Jalal's "The Resurrected Man", Elchi's "Telescope", H. "The Sun Rising on the Araz Coast", A. Babayev's "Koroglu's Return to Çanlibel", K. Chapekin's "Mother", V. Hugo's "The Last Day of the Executioner" and so on. it was mentioned about the successful staging of the works. The tour guides of the theater were also covered. The article was prepared on the basis of the materials published in the newspaper "East Gate".

**Keywords**: *Theater, playwright, director, actor, tour.*

**Али Гахраманов**

**НАХЧИВАНСКИЙ ТЕАТР В СОВРЕМЕННЫЙ ПЕРИОД (1991-2024 ГГ.)**

В статье анализируется творческая деятельность древнего художественного центра в годы независимости (1991-2014 гг.). В эти годы Нахчыванский театр проявил склонность к созданию монументальных спектаклей. Помимо классической и современной азербайджанской драматургии по разнообразию тем, многогранности одного жанра и богатству характеров театр ориентировался на произведения мировой классики. «Шехиды» Р.Самандара, «Мертвец» А.Неси, «Добро и зло» И.Сафарли, «Дьявол» Х.Джавида, «Поход Помпеи на Кавказ» Н.Гасанзаде, «Всадники Аттилы» Н. Хазри, «Потомки Кёроглу» Х. Эльсевера, «Череп» Н. Хикмата, «Надир-шах» Н. Нариманова, «Кукольный дом» Х. Ибсена, «Мангурт» Ч. Айтматова, А. «Шах Каджар» Амирли, «Хокмдар и девушка» И. Эфендиева, «Воскресший человек» М. Джалала, «Телескоп» Эльчи, Х. «Восход солнца над Аразским берегом», «Возвращение Кёроглу в Чанлибел» А. Бабаева. , «Мать» К. Чапекана, «Последний день палача» В. Гюго и так далее. было отмечено об успешной постановке произведений. Под прикрытием оказались и экскурсоводы театра. Статья подготовлена на основе материалов, опубликованных в газете «Восточные ворота».

**Ключевые слова:** *Театр, драматург, режиссер, актер, гастроли.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.04.2024**
**Son daxilolma tarixi:22.05.2024**